# AZƏRBAYCANDA ƏMƏK BAZARI TRENDLƏRİ

## ARAŞDIRMA SƏNƏDİ



2023

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU
IDI
INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# AZƏRBAYCANDA ƏMƏK BAZARI TRENDLƏRİ

## Araşdırma sənədi

**Müəllif: Fərhad Nəbiyev**

**Ekspert: Rövşən Ağayev**

**Bakı - 2023**

# Mündəricat

1. Xülasə ........................................................................................................................4
2. Giriş.............................................................................................................................4
3. Əmək bazarında mövcud durum ..................................................................................5
4. Fəaliyyət növlərinə görə məşğul əhalinin strukturu.....................................................7
5. İqtisadiyyatda işçi qüvvəsinin hərəkəti .......................................................................10
6. Ali təhsil və əmək bazarı arasında əlaqə .....................................................................12
7. Peşə və orta ixtisas təhsili vasitəsi ilə kadr hazırlığının vəziyyəti ..............................14
8. Əmək bazarında qlobal trendlər və məsafədən iş ........................................................16
9. Nəticə və tövsiyələr.....................................................................................................18

# 1. Xülasə

Bu yazıda son illərdə Azərbaycanın əmək bazarında müşahidə edilən əsas tendensiyalar və problemlər nəzərdən keçirilir, eləcə də, əhalinin mövcud məşğulluğunun strukturu təhlil edilir. Nəzərə almaq lazımdır ki, Azərbaycan müstəqilliyini elan etdikdən sonra, sosializmdən kapitalizmə keçid əmək bazarında da yeni tendensiyaların formalaşmasına şərait yaratdı. İşsizlik yeni bir anlayış olaraq ortaya çıxdı. Xüsusilə peşələr arasında fərqli qiymətləndirmə sistemi nəticəsində əmək haqqı fərqləri əhəmiyyətli dərəcədə artdı. Bu dəyişən siyasət kontekstində araşdırma çərçivəsində əmək qabiliyyətli əhali, işçi qüvvəsi və məşğulluq baxımından son illər Azərbaycanda müşahidə edilən əsas keçid tendensiyaları analiz edilir. İşsizliklə bağlı son tendensiyalar və xüsusiyyətlər də yazının əsas istiqamətlərindən birini təşkil edir. Bununla yanaşı, məşğulluq və məşğulluğun sektorlar üzrə bölgüsü, təhsil və məşğulluq arasında əlaqə də araşdırma çərçivəsində cavab axtarılan suallar arasındadır. Bu konteksə uyğun olaraq, araşdırma zamanı əmək bazarının peşə-ixtisas strukturu araşdırılıb və son illərdə qeydə alınan əsas dəyişikliklər qeyd olunub. Dünyada qloballaşma tempinin sürətlənməsi və bunun nəticəsində ortaya çıxan yeniliklərin əmək bazarına təsiri, xüsusilə də Azərbaycanda hal-hazırda formalaşan məsafədən iş trendi araşdırma çərçivəsinə daxil edilib.

# 2. Giriş

Müasir dünyada insan kapitalının rolu getdikcə daha da artmaqdadır. Dünyanın bir çox ölkələri sürətli dəyişikliklərə uyğunlaşmağa çalışaraq bazarın tələblərinə və trendlərinə uyğun olaraq tənzimləmələrə və təşviq mexanizmlərinə əl atırlar. Azərbaycan da bu baxımdan istisna deyil. Xüsusilə də Sovet İttifaqının çöküşündən sonra planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid zərurətinin ortaya çıxması ölkənin əmək bazarında da ciddi dəyişikliklərə səbəb oldu.

2008-ci ildə baş verən qlobal maliyyə böhranından sonra işçiləri qorumaq və daha yaxşı məşğulluq imkanlarını təşviq etmək üçün dövlət tərəfindən əmək bazarına müdaxilənin vacibliyi bir daha təsdiqləndi. Hesab edirik ki, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə fəal əmək bazarı siyasətləri ixtisarların qarşısını almaqda uğurlu olması, məşğulluğun artırılması və iş imkanlarının yaradılması ilə öz əhəmiyyətini sübut edib. Gəlirləri dəstəkləmək üçün tətbiq olunan bəzi müdaxilələr isə maaşların azaldılmasının qarşısını almaq və yoxsulluğu azaltmaq baxımından çox vacibdir.

Onu da nəzərə almaq lazımdır ki, ölkələrin iqtisadi inkişaf səviyyəsindən asılı olaraq hökumətlər əmək bazarında fərqli mexanizmlərə üstünlük verirlər. Məsələn, inkişaf etmiş iqtisadiyyata malik ölkələrdə hökumətlərin əmək bazarı ilə bağlı əsas siyasət istiqaməti əsasən işsizlik müavinəti verilməsi olur. Daha azgəlirli ölkələrdə isə işçi hüquqlarının qorunması, zəruri qanunvericilik bazasının yaradılması, minimum əmək haqqı və məcburi sosial müavinətlər əsas müdaxilə mexanizmləri hesab edilir.

Əmək bazarının mövcud vəziyyətinə ən çox təsir imkanı olan alətlərdən biri təhsildir. Təhsilin bütün pillələri – ali, orta ixtisas, peşə təhsili müəssisələri ölkənin əmək bazarının formalaşmasında əhəmiyyətli rola malikdir. Bu baxımdan, ölkədə əmək bazarında vəziyyətin formalaşması və dəyişməsi baxımından təhsil müəssisələrinin rolu danılmazdır və əmək bazarının inkişaf etdirilməsi ilə bağlı fəaliyyət mütləq şəkildə təhsil sistemini də əhatə etməlidir. Azərbaycanda təhsil müəssisələrinin böyük əksəriyyətinin dövlətə məxsus olması səbəbindən, ölkənin təhsil siyasəti də, əmək bazarındakı trendləri müəyyənləşdirən əsas amillərdən biri olaraq çıxış etməkdədir.

Lakin onu da nəzərə almaq lazımdır ki, bəzi hallarda mövcud siyasi-iqtisadi konyuktur və təhsil sistemi ilə yanaşı, digər amillər də əmək bazarında yeni trendlərin formalaşmasına səbəb olur. Bu baxımdan, xüsusilə COVİD-19 pandemiyası başladıqdan sonra bütün dünyada məşğulluqla bağlı ortaya çıxan yeniliklər xüsusi diqqət çəkir. Artıq "məsafədən iş" anlayışı miqyasından asılı olmayaraq demək olar bütün şirkətlər üçün reallığa çevrilib. Bu baxımdan, əmək bazarında müşahidə edilən trendlərə çevik və effektiv reaksiya verilməsi də, ölkədə əmək münasibətlərinin inkişafı baxımından çox vacibdir.

# 3. Əmək bazarında mövcud durum

Əmək bazarının inkişaf etdirilməsi, xüsusilə də işsizlik səviyyəsinin aşağı həddə olması Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri olaraq elan edilib. İnsan kapitalının inkişaf etdirilməsi bunun təmini baxımından ən vacib sahələrdən biridir. 2017-2021-ci illərdə Azərbaycanda iqtisadi fəal əhali 316 min nəfər artaraq 5 milyon 304 min nəfərə çatıb[1]. Ölkədə gənc əhalinin sayının artması əmək bazarında da yeni çağırışlar ortaya çıxarır.

Sovet İttifaqının dağılması və azad bazar sisteminə keçid ilə birlikdə gələn özəlləşdirmə prosesi nəticəsində özəl sektorda çalışanların sayında qeydə alınan davamlı artım ölkədə əmək bazarında müşahidə edilən əsas trendlərdən biridir. 2021-ci ilin göstəricilərinə əsasən, ölkə üzrə məşğulluqda dövlət sektorunda çalışanların xüsusi çəkisi 22,4 faizə, özəl sektorda çalışanların xüsusi çəkisi isə 77,6 faizə bərabər olub. Ancaq muzdlu işçilər arasında hələ də dövlət sektorunda çalışanlar (52%) üstünlük təşkil edir.[2]

İşsizlik göstəricinə gəldikdə isə, rəsmi rəqəmlərdən aydın olur ki, xüsusilə 2000-ci illərin ortalarından etibarən ölkəyə böyük neft gəlirləri daxil olduqdan sonra işsizlik göstəricisində ardıcıl azalma gözə çarpır. İşsizliyin ən aşağı həddinin qeydə alındığı 2019-cu ildə bu göstərici 4,8%-ə qədər ensə də, 2020-ci ildə anidən qalxaraq 7,2%-ə çatıb. Bunun əsas səbəbi kimi pandemiya məhdudiyyətləri səbəbi ilə bir çox sahələrdə iqtisadi fəaliyyətin zəifləməsi göstərilir. 2021-ci ildə işsizlik bir qədər azalaraq 6%-ə düşsə də pandemiyadan öncəki səviyyəyə dönə

[1] https://www.stat.gov.az/source/labour/az/001_6-7.xls
[2] https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/emek_bazari_2022.zip

bilməyib. Ancaq onu da qeyd etmək lazımdır ki, müstəqil ekspertlər Azərbaycanda real işsizlik göstəricisinin daha yüksək olması qənaətindədir. Ölkə qanunvericiliyinə görə, pay torpağı olanların həmin torpağı əkib-əkməməsindən asılı olmayaraq məşğul hesab edilməsi kimi amillər bunun əsas səbəbidir. Onu da qeyd edək ki, Azərbaycan həm də qeyri-rəsmi məşğulluğun səviyyəsinin yüksək olması ilə seçilir. Bu səbəbdən xeyli insan rəsmi qeydiyyat olmadan işlədiyi üçün, onlar pandemiya dövründə hökümətin işini itirən şəxslər üçün nəzərdə tutduğu sosial müdafiə tədbirlərindən yararlana bilmədilər.

**Qrafik 1: Əmək bazarınının əsas sosial-iqtisadi göstəriciləri**






# 4. Fəaliyyət növlərinə görə məşğul əhalinin strukturu

Əmək bazarının vəziyyətini təhlil etmək baxımından ən önəmli komponentlərindən biri məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsüdür. Müvafiq statistikaya nəzər yetirsək görərik ki, son 5 il ərzində iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin strukturunda əhəmiyyətli dəyişiklik müşahidə edilməyib. Həmin dövrdə emal və ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində çalışan işçilərin sayında nisbi artım qeydə alınıb.

Azərbaycanda hələ də əhalinin böyük bir hissəsi kənd təsərrüfatı sektorunda çalışır ki, onların da çox böyük hissəsini bölgələrdə yaşayan əhali təşkil edir. Lakin nəzərə alaq ki 2021-ci il üzrə ÜDM-nin təşkilində ümumi məşğul əhalinin 36,3%-i qədər işçi qüvvəsi olan kənd təsərrüfatı sektorunun payı[3] sadəcə 5.88%-dir. Bu situasiya bizə ümumilə iqtisadiyyatda və əmək bazarında ciddi problemlərin olduğundan xəbər verir.

Məşğulluqda emal sənayesinin payının az olması iş imkanları ilə yanaşı, ölkə iqtisadiyyatının dayanıqlı gəlir mənbələrinin formalaşması baxımından da çağırışlar doğurur. Bu vəziyyətin uzun müddətdir davam etməsi və hələ də bu yöndə qətiyyətli addımların atılmaması isə narahatlıq doğuran məsələdir və ölkədə məşğulluq imkanlarının artırılması baxımından tez bir şəkildə həll olunması üçün zəruri addımlar atılmalıdır.

**Qrafik 2: Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü**

[3] https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook__2022.zip




Ölkə üzrə məşğulluğun strukturunun təhlili zamanı diqqət yetirilməli mühüm məsələlərdən biri də Peşələrin Beynəlxalq Standart Təsnifatıdır (ISCO). Bu təsnifat vəzifələri və onlara uyğun olaraq iş yerlərini aydın şəkildə müəyyən edilmiş qruplar toplusunda təşkil etmək üçün bir vasitədir.[4] Onun əsas məqsədi peşələr haqqında beynəlxalq hesabat, statistik və inzibati məlumatların müqayisəsi və mübadiləsi üçün əsas yaratmaq, eləcə də, peşələrin milli və regional təsnifatlarının hazırlanması modeli və inkişaf etməmiş ölkələrdə bilavasitə istifadə oluna bilən sistem formalaşdırmaqdır.

ISCO statistik proqramlarda və müxtəlif insanyönümlü proqramlarda istifadə üçün nəzərdə tutulub. Müştəriyönümlü müraciətlərdə iş axtaranların iş vakansiyaları ilə uyğunlaşdırılması, işçilərin ölkələr arasında qısa və ya uzunmüddətli miqrasiyasının idarə edilməsi və peşə təhsili

4 https://www.ilo.org/wcmsp5/groups/public/@dgreports/@dcomm/@publ/documents/publication/wcms_172572.pdf

proqramlarının və təlimatlarının hazırlanması da bunlara daxildir.

ISCO-ya əsasən iki konsept inkişaf etdirib ki bunlardan biri iş təsnifatı, digəri isə bacarıq təsnifatıdır. Bacarıq verilən işin tapşırığını və vəzifələrini yerinə yetirmək bacarığı kimi müəyyən edilir və özlüyündə bacarıq səviyyəsi və bacarıq ixtisaslaşması olaraq iki qrupa ayrılır. Bacarıq səviyyəsi bir peşədə yerinə yetirilməli olan tapşırıq və vəzifələrin mürəkkəbliyi və çeşidinin funksiyası kimi müəyyən edilir. Bacarıq səviyyəsi hər bir ISCO-08 bacarıq səviyyəsi üçün müəyyən edilmiş xarakterik vəzifə və vəzifələrlə bağlı peşədə yerinə yetirilən işin xarakteri, təhsilin Beynəlxalq Standart Təsnifatı (ISCED-97) (YUNESKO, 1997) baxımından müəyyən edilmiş formal təhsilin səviyyəsi və bu tapşırıqların və vəzifələrin səriştəli yerinə yetirilməsi üçün tələb olunan qeyri-rəsmi iş yerində təlim və yaxud müvafiq peşə üzrə əvvəlki təcrübənin miqdarını nəzərə alaraq ölçür. Bu standartlarla 4 səviyyədə bacarıq qabiliyyəti müəyyən edilib.

1-ci Bacarıq Səviyyəsində olan peşələr adətən sadə və gündəlik fiziki və ya əl işlərini yerinə yetirməyi əhatə edir. Onlar əl alətlərindən və ya sadə elektrik avadanlıqlarından istifadəni tələb edə bilər. Həmçinin bura müəyyən əl əməyinə əsaslanan peşələr də daxildir. 2-ci Bacarıq Səviyyəsində olan peşələr adətən maşın və elektron avadanlıqların istismarı kimi tapşırıqların icrasını əhatə edir; nəqliyyat vasitələrinin idarə edilməsi, elektrik və mexaniki avadanlıqlara texniki xidmət və təmir kimi xidmətlər də bura daxildir. 3-cü Bacarıq Səviyyəsində olan peşələr adətən ixtisaslaşdırılmış sahədə geniş faktiki, texniki və prosedur bilikləri tələb edən mürəkkəb texniki və praktiki tapşırıqların yerinə yetirilməsini nəzərdə tutur. 4-cü Bacarıq Səviyyəsindəki peşələr isə adətən ixtisaslaşmış sahədə geniş nəzəri və faktiki biliklərə əsaslanan mürəkkəb problemlərin həlli, qərarların qəbulu və yaradıcılıq tələb edən tapşırıqların icrasını əhatə edir. İcra olunan vəzifələrə adətən müəyyən bir sahədə insan biliklərinin məcmusunu genişləndirmək üçün təhlil və tədqiqat, xəstəliklərin diaqnozu və müalicəsi, biliklərin başqalarına ötürülməsi, tikinti və istehsalat üçün strukturların və ya maşınların və proseslərin layihələndirilməsi daxildir. Belə təsnifləşdirmənin aparılması həm işaxtaranlar üçün, həm də işəgötürənlər üçün resursların daha səmərəli istifadəsi və faydalılığının artırılması üçün vacibdir.

**Bacarıq ixtisaslaşması isə dörd anlayış baxımından nəzərdən keçirilir:**

- tələb olunan bilik sahəsi;
- istifadə olunan alətlər və mexanizmlər;
- İstifadə edilən materiallar;
- istehsal olunan mal və xidmətlərin növləri.

**ISCO-08 işçiləri 10 əsas qrupa bölür:**

1. Menecerlər
2. Peşəkarlar
3. Texniklər və köməkçi mütəxəssislər
4. Kərgüzarlıq dəstəyi işçiləri

5. Xidmət və satış işçiləri
6. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq işçiləri
7. Sənətkarlıqla əlaqəli peşə işçiləri
8. Zavod və maşın operatorları və montajçılar
9. Sadə peşələr
10. Silahlı qüvvələrlə bağlı peşələr

ISCO-dan istifadə həm qloballaşma, həm də beynəlxalq praktikanın tətbiq olunması baxımından vacib əhəmiyyət daşıyır. Bu baxımdan ölkəmizdə də statistikaların bu təsnifata uyğun toplanması və hazırlanması toplanan məlumatların daha səmərəli işlənməsinə və şəffaflığına uyğun olacaqdır.

# 5. İqtisadiyyatda işçi qüvvəsinin hərəkəti

İqtisadiyyatda işçi qüvvəsinin hərəkətini analiz etməklə biz əmək bazarında işçilərin il ərzində hansı sahələrdə işdən çıxdığı və iş tapdığını müəyyən etmiş oluruq. Əgər işdən çıxma tendensiyası artıq bir neçə il ərzində təkrarlanırsa, bu, artıq işin işdə qalma güvənliyi (“job security”) və ya işdən qovulmama zəmanəti baxımından zəif olduğu və həmin sektorda işdə uzun müddət qalmaq ehtimalının zəif olması mənasına gəlir. Normal şəraitdə bu işlər insanlar tərəfindən çox seçilməməlidir, lakin zəif iqtisadi və sosial mühit olan ölkədə insanların bu işləri sadəcə həyatda qalmaq səbəbindən qısa müddətli gəlir mənbəyi kimi qəbul edirlər. Çünki, insanların uzun müddətdə heç bir perspektivi olmur və bu, onların həm rifahına, həm də sosial həyatına təsir edir.

Statistik göstəricilərin təhlili göstərir ki, Azərbaycanda ən güvənli iş mədənçıxarma sənayesindədir. Eyni zamanda daim işçilərin sayının dəyişdiyi tikinti sahəsi ən azgüvənli iş sahəsi kimi nəzərə çarpır. Bu isə, 2021-ci il göstəricilərinə əsasən, məşğul əhalinin 7,5%-nin daim işini itirmək təhlükəsi ilə işlədiyi və ya daha çox müvəqqəti və daimi olmayan işdə işləməsi mənasına gəlir. Eyni zamanda, inzibati və yardımçı xidmətlərin göstərilməsi, ticarət və nəqliyyat vasitələrinin təmiri və emal sənayesi sahələrində də daimi şəkildə işəgötürmələrinin və işdən çıxarılmalarının sayının yüksək olduğu nəzərə çarpır. Nəzərə alsaq ki bu tipli işlərə olan tələb əsasən ixtisassız kadrlarla bağlıdır, burda artıq digər sual ortaya çıxır - ölkədə əhalinin təhsil səviyyəsi istənilən səviyyədədirmi?

**Qrafik3: İqtisadiyyatda işçi qüvvəsinin hərəkəti**


İqtisadiyyatda işçi qüvvəsinin hərəkəti (il ərzində işdən çıxmış işçilər)
Digər sahələrdə xidmətlərin göstərilməsi
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi
Təhsil
Dövlət idarəetməsi və müdafiə; sosial təminat
İnzibati və yardımçı xidmətlərin göstərilməsi
Peşə, elmi və texniki fəaliyyət
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar
Maliyyə və sığorta fəaliyyəti
İnformasiya və rabitə
Turistlərin yerləşdirilməsi və ictimai iaşə
Nəqliyyat və anbar təsərrüfatı
Ticarət; nəqliyyat vasitələrinin təmiri
Tikinti
Su təchizatı, tullantıların təmizlənməsi və emalı
Elektrik enerjisi, qaz və buxar istehsalı,...
Emal sənayesi
Mədənçıxarma sənayesi
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq
0
20000
40000
60000
80000
2021
2020
2019
2018
2017




# 6. Ali təhsil və əmək bazarı arasında əlaqə

Əmək bazarından danışarkən əmək bazarı üçün kadr yetişdirən qurumları unutmaq olmaz. Azərbaycanda dövlətin böyük rolu bu sahədə də nəzərə çarpır. Məlum olduğu kimi Azərbaycanda ali təhsil müəssisələrinə qəbul Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən aparılır və hər il imtahanlardan sonra ali məktəb seçimi üçün müsabiqə elan olunur. Bu baxımdan son 5 il ərzində bakalavr namizədlərinin ixtisas seçimi statistikasına baxmaq zəruridir. Statistikada diqqəti cəlb edən təhsil, texniki və texnoloji, iqtisadiyyat və idarəetmə ixtisasları qrupudur. Əhalinin çox hissəsinin çalışdığı kənd təsərrüfatı ixtisasları qrupunun ən az seçilən ixtisas qruplarından olduğu görünür. Bu tendensiyalar ixtisas seçimi ilə yanaşı hazırda təhsil alan tələbələrin sayında da müşahidə olunur.

Bu tipli uyğunsuzluqların əsas səbəbi düzgün aparılmayan və təhlil olunmayan siyasətdir ki, bunun aradan qaldırılması da məhz dövlətin əlindədir. Belə statistikalarda daha detallı informasiyanın və dataların verilməməsi isə tədqiqatçılar üçün çətinlik törədir və analiz prossesinin daha az effektiv olmasına səbəb olur. Bu baxımdan, dövlət qurumlarının daha əhatəli statistik göstəriciləri açıqlaması çox əhəmiyyətlidir. Bu, dövlətin hesabatlılığının artmasına, vətəndaşların qərar qəbulu prosesində daha aktiv iştirakına gətirib çıxara bilər.

**Qrafik 4: Ali təhsil müəssisələrinə qəbul olan bakalavr tələbələrinin ixtisas qrupları və istiqamətlər üzrə bölgüsü**[5]




[5] https://www.stat.gov.az/source/education/az/001_8_4-6.xls




# 7. Peşə və orta ixtisas təhsili vasitəsi ilə kadr hazırlığının vəziyyəti

Rəsmi rəqəmlərdən aydın olur ki, Azərbaycanda peşə və orta ixtisas təhsil müəssisələrinə olan tələb ali təhsil müəssisələri ilə müqayisədə aşağıdır.[6] Burada əsas iki səbəb gözə çarpır: insanların prestij baxımından bu təhsil müəssisələrinə daha az üstünlük verməsi və dövlətin bu təhsil müəssisələrinə ali təhsil müəssisələrindən az pul ayırması. Dövlətin ali məktəblərdə olduğu qədər peşə məktəbləri və orta ixtisas təhsil müəssisələrinə diqqət ayıracağı təqdirdə biz bu sahədə də inkişaf görə bilərik. Bununla yanaşı, abituriyentləri və onlara təsir göstərən şəxsləri - valideynləri, müəllimləri və s. maarifləndirməklə bu müəssisələrə marağı artıra bilərik. Əhalinin böyük hissəsi kənd təsərrüfatında çalışsa da, onların konkret ixtisasa sahib olması problemi mövcuddur. Bu baxımdan ekstensiv kənd təsərrüfatından intensiv kənd təsərrüfatına keçid reallaşana qədər kənd təsərrüfatında çalışan əhali bu yöndə ixtisaslaşmalı, ən azından peşə və ya orta ixtisas təhsili almalıdır. Eyni zamanda, ali məktəblərdə kənd təsərrüfatı sahəsində ixtisasların sayı artırılmalı, habelə bazarda iş tapma ehtimalı yüksək olan ixtisasların üzərinə fokuslanmalı, bu ixtisaslar üzrə qəbul planı artırılmalıdır.

Rəsmi statistik məlumatlar ölkədə peşə təhsilinə marağın zəiflədiyini göstərir. Məsələn, 1991-ci ildə ölkədə 82188 nəfər təhsilin bu pilləsində təhsil aldığı halda sonra illərdə bu göstəricilər kəskin şəkildə azalmağa başlayıb və hazırda onların sayı 20000 nəfərə qədər azalıb. Belə bir azalmanın fonunda diqqəti çəkən məqam budur ki, son 5 ildə peşə təhsili müəssisələrinə

[6] https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/education_2022.zip

qəbul olunan tələbələrin sayında artım tendensiyası müşahidə olunur. Araşdırma çərçivəsində bu artımın səbəblərini aydınlaşdırmaq məqsədi ilə ekspertlərlə müsahibələr aparılıb. Həmin müsahibələrdə qeyd edilib ki, son illərdə orta təhsil müəssisələrində uğur göstəriciləri aşağı olan şagirdlərin müəllimlər və məktəb rəhbərliyi tərəfindən peşə məktəblərinə yönləndirilməsi halları mövcuddur. Qeyd etmək lazımdır ki, peşə məktəblərində kəmiyyət baxımından artımı dəstəkləyən bu tip addımlar şagirdlərin könüllü olmadan, maraq göstərmədən peşə təhsilinə yönləndirilmənin nəticəsidir. Bu, həmçinin ali məktəblərə qəbul faizinin süni şəkildə artmasına və şagirdlərin şəxsi seçim haqqının əlindən alınmasına gətirib çıxarır. Bu baxımdan, peşə məktəblərinə marağın real olaraq artırılması məqsədilə valideynlər və şagirdlərlə müəyyən maarifləndirici təbliğat işlərinin aparılması və peşə məktəblərində təhsilin keyfiyyətinin artırılması daha effektiv yol ola bilər. Əks halda ancaq statistik göstəricilər yaxşılaşacaq, keyfiyyət isə dəyişməz qalacaq.

**Qrafik 6: 2017-2021-ci illərdə peşə təhsili müəssisələrinə qəbul olanların sayının dəyişməsi dinamikası**




Orta ixtisas təhsili müəssisələri ilə bağlı da oxşar tendensiyalar gözə çarpır. Rəsmi rəqəmlərdən aydın olur ki, təhsilin bu pilləsində səhiyyə, təhsil, texniki və iqtisadiyyatla bağlı istiqamətlərə maraq daha yüksəkdir. Eyni zamanda ali təhsil müəssisələrinə qəbul ola bilməyən gənclər əsasən orta ixtisas təhsili müəssisələrində üz tuturlar. Təəssüf ki, tələbələr və valideynlər tərəfindən ali təhsil müəssisələri yeganə alternativ təhsil ocağı qismində baxılır. Bu, təhsilin digər pillələrində təhsilin keyfiyyətinin cəlbedici olmaması və bu qurumların reputasiyalarının aşağı olması ilə bağlıdır. Oğlanları ali təhsil müəssisələrinə təşviq edən digər bir amil isə ali təhsil alan zaman onlara hərbi xidmətlə bağlı möhlət verilməsi və ali təhsil aldıqdan sonra digərləri ilə müqayisədə daha az müddət hərbi xidmət çəkmələri ilə bağlıdır. Bu tipli təşviqlər isə gənclərin irrasionallığına və gələcəyə yönəlik hədəflərinin və məqsədlərinin olmamasına gətirib çıxarır.

**Qrafik 7: Orta ixtisas təhsili müəssisələrində müxtəlif ixtisas qruplarında təhsil alan tələbələrin sayının tədris illəri üzrə dəyişməsi**




# 8. Əmək bazarında qlobal trendlər və məsafədən iş

COVID-19 pandemiyasının uzun sürməsi nəticəsində bütün dünyada biznes və iqtisadiyyatlar üçün əhəmiyyətli risklər yaranıb. Pandemiyanın iqtisadiyyatın bir çox sahələrində olduğu kimi əmək bazarının üzərində də ciddi effektlərini görmək mümkündür. Bu təsir özünü əsasən iki formada göstərib: Pandemiyanın başlamasından sonra işçilərin bir hissəsi məsafədən işə (remote) keçid etdilər. İşçilərin əhəmiyyətli bir hissəsi isə ümumiyyətlə, iş yerini itirməli oldu. Müqayisə üçün bildirək ki, pandemiya dövründə - 2021-ci ildə iş yerini itirənlərin sayı qlobal maliyyə böhranı zamanı (2009) işini itirənlərin sayından dörd dəfə daha yüksək olub.

Araşdırmalar göstərir ki, COVID-19 pandemiyasından əvvəl mövcud olmuş bəzi spesifik nümunələr pandemiya dövründə daha da genişlənib. Onların ən vacibi məsafədən işi özündə ehtiva edən hibrid işi əhatə edən məşğulluğun artmasıdır. Halbuki kütləvi tətbiq edilən karantin rejimi ilə müşahidə edilən COVID-19-a qədər uzaqdan işləmə - evdən "arxa ofis" kimi işləmək geniş yayılmayan təcrübə olub. Hazırda pandemiya səbəbiylə uzaqdan işləmək məhdudiyyətləri aradan qaldırıldıqdan sonra da bəzi iş yerlərində işçilərə məsafədən iş təklif olunur. Bu şirkətlərin bəzilərində tamamilə məsafədən iş, bəzilərində isə həftənin müəyyən günləri məsafədən çalışmaq imkanı mövcuddur. Bir vaxtlar pandemiya səbəbindən məcburi və qısamüddətli olan yenilik artıq bir çox müəssisələr üçün uzunmüddətli siyasətə çevrilir və bunu təmin etmək üçün şirkətlər bir çox imkanlara malikdir.

İnsanların və şirkətlərin bu trendi özlərində tətbiqetmə qabiliyyəti isə bəzi şərtlər altında mümkündür. Bu şərtlər isə beynəlxalq qurumlar tərəfindən nəzərdə saxlanılır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının bu yöndə apardığı praktiki araşdırması mövcuddur. Araşdırmaya əsasən, məsafədən iş sadəcə bəlli peşələr və sahələr üzrə mümkündür. Bu peşələr

əsasən informasiya və kommunikasiya, maliyyə və sığorta fəaliyyəti və s. biznes sahələrinin əhatə edir ki, onların ölkənin əmək bazarındakı payı aşağıdır. Eyni zamanda məsafədən işləmək üçün internetə çıxış və yüksək sürətli internet kimi zəruri infrastrukturun mövcudluğunu tələb edir. Ancaq Azərbaycan nümunəsində uyğun infrastruktur əsasən Bakı şəhərində yaradılıb, ölkənin digər bölgələrində yaşayanlar üçün müvafiq infrastruktur zəif qurulub.

Dünyada son illər yaranan məsafədən iş trendi təbii ki, Azərbaycanda da tətbiq edilib. Bir çox şirkət COVID-19 pandemiyası dövründə karantin tədbirlərini əsas gətirərək məsafədən iş rejiminə keçməyə məcbur olublar. Məsafədən iş sisteminin müsbət və mənfi cəhətləri var ki, bu da işçilərin seçiminə birbaşa təsir göstərir. Bunlar bir tərəfdən işçilərin sosial və psixoloji durumları ilə bağlıdırsa, digər tərəfdən şirkətlərin xərclərinin həcmi və istiqamətinin dəyişməsinə bağlıdır.

Müsbət məqam olaraq işçilərin məhsuldarlığının və iş məmnunluğunun, işçilərin öz vəzifələrinin icrasına marağının, yüksək ixtisaslı işçilərin mobilliyinin artmasını və biznes üçün əvvəllər əldə olunmayan müxtəlif bacarıq və istedadlara ən geniş çıxış imkanı kimi amilləri göstərmək olar. Bu iş rejiminin mənfi cəhətdi budur ki, işçilərin peşəkar ünsiyyəti azalır, insan resurslarının idarə edilməsinin effektivliyi aşağı düşür, məlumatların konfidensiallığının və əmək təhlükəsizliyinin mümkün pozuntuları riski artır, sosial təcridolma səbəbindən işçilər arasında, xüsusilə təşkilatçılıq və fərdi işləmə qabiliyyəti zəif olan işçilər arasında stress və qeyri-məhsuldarlıq artır və dolayı yolla işçilərin karyera perspektivlərinə və prioritetlərinə mənfi təsir göstərir.[7]

Digər tərəfdən, məsafədən iş trendi özü ilə birlikdə insanların davranışlarında müəyyən yeniliklər də gətirib.[8] Məsafədən işin gətirdiyi üstünlüklərilə yanaşı mənfi cəhətləri də olduğu üçün insanlar seçimdə tərəddüd edirlər. Tədqiqatın hazırlanması çərçivəsində məsafədən işləyən şəxslərlə apardığımız söhbətlərdən məlum oldu ki, məsafədən işin özü ilə gətirdiyi sosiallaşmaq, komfort zonaya öyrəşmək və tənbəllik problemlərinə çarə olaraq insanlar kofe mağazalarında masaları aylıq olaraq kirayələmək kimi üsullardan istifadə edirlər. Həmin masalar ay ərzində sadəcə onlara məxsus olur və mağaza tərəfindən yalnız həmin müştəri üçün kirayələnir. Bu tipli yeniliklərin artıq insanların həyatlarında tətbiqi dünyada baş verən yeniliklərin Azərbaycana tez bir zamanda gəlməsinin əyani sübutudur.

Son illər ərzində bu trendin daha da geniş yayılması nəticəsində bu mövzu bir neçə tədqiqatın obyekti olsa da, nə beynəlxalq, nə də yerli təşkilatların ölkəmizlə bağlı araşdırma aparmadıqlarını və öz araşdırmalarında Azərbaycana yer vermədiyini görürük. Bu baxımdan sözügedən mövzuda data və məlumat azlığını nəzərə alaraq müəllif tərəfindən məsafədən işlərlə bağlı kiçik bir sorğu keçirilib. Müəllif bu sorğunun daha böyük tədqiqatlar aparılana qədər bu

---

[7] https://www.ilo.org/ankara/news/WCMS_774339/lang--en/index.htm
[8] https://www.ieeca.org/journal/index.php/JEECAR/article/view/669/332

trend barədə müəyyən anlayış formalaşdıracağına və daha böyük tədqiqatların və statistikanın toplanmasına səbəb olacağına ümid edir.

Sorğu daha çox məsafədən işlərin yayğınlığına, məsafədən işləyənlərin daha çox hansı sektorda çalışdığına, onların neçə saat işlədiyinə, insanlar tərəfindən seçilib-seçilmədiyini müəyyən etməyə, seçmədikləri təqdirdə səbəbin nə olduğunu müəyyən etməyə çalışıb. Sorğunun nəticələrindən aydın olur ki, respondentlərin 41,7%-i məsafədən çalışır. 19,4% respondent məsafədən işləmək imkanı olmasına rəğmən ənənəvi qaydada işə üstünlük verdiyi halda 38,9% ümumiyyətlə məsafədən işləmək şansına malik deyil. Özəl sektorda işləyənlərin 71%-i məsafədən işləmək şansına malik olsa da, dövlət sektorunda çalışanların cəmi 14%-nin belə imkanı var. Özəl sektorda məsafədən iş rejiminin ən az tətbiq edildiyi sahə xidmət sektorudur. Bank, maliyyə və iqtisadiyyat sahələrində işləyənlərin çoxu məsafədən çalışır və ya bu şansa malikdir. Dövlət sektoru bu baxımdan çox geri qalır ki, bu da nəticədə insanların, xüsusilə də gənclərin iş seçimi zamanı özəl sektora üstünlük verməsinə gətirib çıxarır.

Sorğu çərçivəsində respondentlərdən bu trendin özlərində hiss etdikləri və kənardan müşahidə etdikləri mənfi tərəfləri barədə də soruşulub. Nəticələrdən görünür ki, ən əsas problem kimi sosiallaşmaq çətinliyi qeyd edilib. Respondentlərin 66,7%-i bunu özünə ən əsas problem kimi görür. Respondentlərin 60%-i tərəfindən növbəti problem olaraq komfort zonaya aludəçiliyin yaranması göstərilib. Növbəti seçilən problemlər isə tənbəllik və sağlamlıq problemləridir. Bu variantların hər ikisi respodentlərin 33,3%-i tərəfindən seçilib.

Araşdırmanın nəticəsi göstərdi ki, bəzi hallarda şirkətlər işçilərin evdə qalmağını əsas gətirərək onların iş yükünü daha da artırırlar. Bu tipli hallar işçinin motivasiyasına mənfi təsir göstərərək onun məhsuldarlığını aşağı salır.

Qeyd edək ki, sorğu hazırki situasiya barədə müəyyən məlumat versə də bu istiqamətdə müvafiq qurumlar tərəfindən daha dərin və ətraflı sorğuların aparılmasına ehtiyac var.

# 9. Nəticə və tövsiyələr

Apardığımız tədqiqatın nəticəsi deməyə əsas verir ki, digər istiqamətlərlə yanaşı, əmək bazarında da hələ qət etməli olan uzun yol var. Son 30 il ərzində köklü və müsbət yöndə dəyişiklikdən danışmaq hazırda real görünmür. Araşdırmanın nəticələrinə əsaslanaraq demək olar ki, hazırda əmək bazarındakı işçi qüvvəsinin əksəriyyəti ixtisassız kadrlardır.

Əhalinin əsas hissəsi kənd təsərrüfatında məşğul hesab edilir, lakin bu sahənin ölkənin ÜDM-nin formalaşmasında rolu çox kiçikdir. Kənd təsərrüfatı sektoru əmək intensivliyi tələb etsə də, çox az əlavə dəyər yaradır. Bu isə əmək ehtiyatlarının qeyri-effektiv istifadə olunması deməkdir. Ali məktəb seçimlərində tələbələrin bir çoxu aqrar sahələri seçməkdə könüllü olmurlar.

İşsizliyin qarşısının alınması yönündəki addımlar isə sadəcə bu problemi müvəqqəti olaraq həll edir, onun dayanıqlığını təmin edə bilmir. İnsanların əsasən müvəqqəti işlərdə çalışması onların davamlı bir gəlir mənbəyinin olmaması deməkdir və bu, birbaşa onların rifahına təsir edən önəmli amillərdən hesab olunur.

Digər problem əmək bazarı ilə bağlı statistik məlumatların və dataların toplanma metodologiyasında müəyyən boşluqların və çatışmazlıqların olmasıdır. Əmək bazarının mövcud strukturu yeni trendlərin, xüsusilə məsafədən iş rejiminin ölkəmizdə yayılması prosesini əngəlləyir. Əmək bazarının strukturunun dəyişməsi üçün iqtisadiyyatda prioritet verilən sektorların dəyişməsi tələb olunur. Eyni zamanda ali, peşə və orta ixtisas təhsili müəssisələrində təklif edilən ixtisasların qəbul planları dəyişdirilməlidir. Bu istiqamətdə atılması vacib olan digər bir vacib addım isə, büdcədən təhsilə ayrılan vəsaitin səmərəli şəkildə bölüşdürülməlisi və xərclənməsi ilə bağlıdır.

**Yekun tövsiyələr:**

- Statistika məlumatların toplanması metodologiyasının təkmilləşdirilməsi, statistik məlumatlar daha dəqiq və rasional şəkildə toplanması. Metodologiyada əmək bazarında baş vermiş son yeniliklər nəzərə alınır, dəyişikliklərin adaptasiyası çevikliyi artırılır, iş bölgüləri daha dəqiqliklə paylaşılır;
- Peşə, orta ixtisas və ali məktəblərdə ixtisas bölgüləri daha düzgün və bu yöndə aparılmış araşdırmaların nəticələri nəzərə alınmaqla hazırlanması;
- Peşə və orta ixtisas təhsil müəssisələrində təhsilin təşviqinin gücləndirilməsi. Ali təhsil tələb etməyən yerlərdə peşə və orta ixtisas təhsil müəssisələri ön plana çıxarılır.
- Ali məktəblərdə ixtisasların və onlara qəbul planının sayının yenidən nəzərdən keçirilməsi, əmək bazarında daha çox tələb olunan ixtisaslara önəm verilməsi, ehtiyac olmayan ixtisasların sayının azaldılması;
- Yeni yaranan trendlərə uyğun araşdırmaların aparılması. “Məsafədən iş”, “freelance”, “müvəqqəti iş” kimi yeni iş növləri barədə araşdırmalar aparılması və statistik bazanın formalaşdırılması məqsədəuyğun olardı.
- Məsafədən iş rejiminin təşviqi. Bu rejim üçün daha uyğun şəraitin yaradılması, uyğun sektorlarda təşviqi faydalı olardı. Eyni zamanda bu trend Bakı şəhərində müəyyən dərəcədə tıxacın və ictimai nəqliyyatda sıxlığının azalmasına yardımçı ola bilər.

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI